# Güclü Azərbaycan mediası dövlətin prioritetidir

Tarixi qələbəmizlə yekunlaşan Vətən müharibəsinin başa çatmasından qısa müddət sonra Azərbaycan Respublikası Prezidenti tərəfindən "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanın imzalanması, həmin fərmanla Medianın İnkişafı Agentliyinin yaradılması və "Media haqqında" qanunun qəbulu milli informasiya məkanında davamlı inkişafa nail olunmasının dövlət üçün prioritet təşkil etməsinin göstəricisidir.

Medianın İnkişafı Agentliyinin Nizamnaməsində kifayət qədər geniş spektri əhatə edən fəaliyyət istiqamətləri əksini tapıb. Agentlik ilk növbədə media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, infrastrukturun modernləşdirilməsi, müvafiq sahədə yeni iqtisadi modelin yaradılmasını hədəfləyir və bu istiqamətdə atılacaq addımlara dəstək göstərir.

AZƏRTAC xəbər verir ki, media islahatlarının hüquqi bazasını təşkil edən "Media haqqında" qanun milli informasiya məkanında davamlı inkişafa nail olunmasının dövlət üçün prioritet təşkil etməsinin göstəricilərindən biridir. Qanun layihəsi parlamentdə müzakirəyə çıxarılanadək aparıcı media subyektlərində təqdim edilib və 800-dən artıq jurnalist, media nümayəndəsi və ekspertlərinin iştirakı ilə onun müzakirəsi həyata keçirilib. Layihənin parlament səviyyəsində də dəfələrlə ictimai müzakirəsi təşkil olunub, yüzlərlə media nümayəndəsinin və ekspertin, həmçinin vətəndaş cəmiyyəti üzvlərinin həmin müzakirələrdə iştirakı təmin edilib. Haqlı olaraq bir çox ekspertlər "Media haqqında" qanunu dövlət büdcəsindən sonra cəmiyyətdə böyük maraq doğurmuş və geniş müzakirə olunmuş qanun kimi dəyərləndiriblər. Qanun jurnalistlərin peşəkar fəaliyyətinin maneəsiz və effektiv həyata keçirilməsinə, media subyektlərinin yaradıcılıq və redaksiya müstəqilliyinin ən yüksək səviyyədə müdafiə edilməsinə və ifadə azadlığının möhkəmləndirilməsinə yönəlmiş təminat mexanizmlərinin daha da gücləndirilməsi üçün hüquqi əsas formalaşdırır. Qanun məqsədi daxili informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi və medianın cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması yolu ilə yerli medianın inkişafına təkan verilməsi və informasiya mühitinin rəqabətliliyinin artırılmasından ibarətdir. "Media haqqında" qanun beynəlxalq norma və prinsiplər, habelə mütərəqqi xarici təcrübə nəzərə alınmaqla hazırlanıb. Qanun ayrı-ayrı normaları işlənərkən müxtəlif dövlətlərin analoji qanunları araşdırılmış, ictimaiyyətin sosial sifarişinə, beynəlxalq hüquqi aktların yanaşmasına, xarici dövlətlərin təcrübəsinə və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinə uyğun olaraq qabaqcıl standartlara cavab verən normalar formalaşdırılıb.

Azərbaycan media mühitinin sağlamlaşdırılmasında mühüm rol oynayacaq Media Reyestrinə jurnalistlərin məlumatlarının daxil edilməsi nəticəsində onlara təsdiqedici sənəd mahiyyətli vəsiqə təqdim olunması qanunda təsbit edilir ki, bu vəsiqənin əldə edilməsi də tamamilə könüllü xarakter daşıyır. Həmin vəsiqə jurnalistin, həqiqətən, jurnalist olduğunu deyil, jurnalistin, həqiqətən, Media Reyestrinə daxil edildiyini sübut edir. Amma təəssüflər olsun ki, bu məsələ ətrafında bilərəkdən spekulyativ fikirlər səslənir. İfadə və söz azadlığının yüksək səviyyədə təmin olunduğu ölkəmizdə dövlətin media sferasına hər hansı inzibati müdaxilə etmək niyyəti yoxdur. Əksinə, media sahəsində institusional quruculuq işlərinin davam etdirilməsi məqsədilə publik hüquqi şəxs statuslu Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi yaradılmışdır. Agentliyin Nizamnaməsi ilə tanış olduqda onun yalnız medianın inkişafı yönümlü səlahiyyətlərinin olduğunu müəyyənləşdirmək çətin deyil. Media Reyestri üçün tələb olunan rəsmi məlumatın məqsədi həm media subyektlərinin, həm də jurnalistlərinin fəaliyyətinin daha səmərəli təşkilini və onların hüquqlarının ən yüksək səviyyədə müdafiəsini təmin etmək, heç bir qanuni əsası olmadan özünü media subyekti kimi təqdim edən və qeyd olunan statusdan sui-istifadə edən şəxslərin fəaliyyətinin qarşısını almaqdır.

Media Reyestrinin Azərbaycan media mühitinin sağlamlaşdırılmasında mühüm funksiya yerinə yetirməsi redaksiya heyəti bir nəfərdən ibarət olan qeyri-peşəkarlar və eyni zamanda hər fürsətdə ölkəmizin beynəlxalq imicini ləkələməkdən yorulmayan şəxslər tərəfindən qıcıqla qarşılanıb. Onlar bütün gücləri səfərbər edərək "Media haqqında" qanunu və Media Reyestrini yenidən hədəfə alır, müxtəlif iddialarla qarayaxma kampaniyası aparırlar. Əslində, belə neqativ qüvvələrin hədəfi yalnız Medianın İnkişafı Agentliyi deyil, Azərbaycanın bütün sağlam mediasıdır. Belə mövqedə dayananlar ilk növbədə islahat xarakterli addımların mahiyyətini təhrif etməyə və əhəmiyyətini azaltmağa, ictimai rəyi çaşdırmağa çalışırlar. Sosial şəbəkələrin Azərbaycan seqmentində sadə monitorinq aparanda görürük ki, agentliyə qarşı virtual hücumlar bütün vicdanlı jurnalistlərin hiddətinə səbəb olan "reket media" mənsubları və ifadə azadlığı kimi humanist dəyərləri özlərinin spekulyasiya alətinə çevirmiş dairələr tərəfindən təşkil olunub. Həm qeyri-peşəkar medianın, həm Azərbaycanın imicini ləkələmək sahəsində ixtisaslaşmış "peşəkarların" məqsədi bəllidir: milli media məkanımızı hədəf seçmək, yeniliklər, islahatlar barədə mənfi rəy yaratmaq. Azərbaycanda sabitlik və təhlükəsizliyin təmin olunmasından, ölkəmizin davamlı inkişafından məyus olan bu kimi şəxslərin məqsədi media mühitində xaos və anarxiyanın hökm sürməsinə nail olmaqdır. Lakin ölkəmizin milli informasiya məkanında mövcud olan reallıqlar, tərəqqiyə yönəlik addımlar, media mühitinin sağlamlaşması istiqamətində ciddi jurnalistlərin dövlətin atdığı addımlarla həmrəylik nümayiş etdirməsi bu cəhdləri tamamilə rədd edir, zərərsizləşdirir.

Medianın inkişafı yönündə dövlətin verdiyi qərarların məzmununa nəzər salsaq görərik ki, Azərbaycan mediasının iqtisadi dayanıqlılığının gücləndirilməsi, müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran, habelə dövlətçilik ənənələrinə bağlı və xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafı prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində olub. Medianın İnkişafı Agentliyi də öz işini media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, müvafiq sahədə yeni iqtisadi modelin formalaşdırılması, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması üzərində qurub.

Azərbaycan.- 2023.-28 fevral.- S.6.